**“Prokurorluq haqqında” Azərbaycan Respublikasının qanununa dəyişikliklər edilməsi barədə**

**Azərbaycan RESPUBLİKASININ Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Prokurorluq haqqında» Azərbaycan Respublikasının qanununa («Azərbaycan» qəzeti, 1999-cu il 30 dekabr, № 299; «Prokurorluq haqqında» Azərbaycan Respublikasının qanunu, 1999-cu il 7 dekabr, № 767-IQ) aşağıdakı dəyişikliklər edilsin:

1. Qanunun 8-ci maddəsinin birinci hissəsinin dördüncü abzasından «Azərbaycan Respublikasının Nəqliyyat Prokurorluğu» sözləri; yeddinci abzasından «və nəqliyyat» sözü; 10-cu maddəsinin üçüncü hissəsinin yeddinci abzasından «Azərbaycan Respublikasının Nəqliyyat Prokurorluğu» sözləri; 15-ci maddəsinin ikinci hissəsindən «nəqliyyat və» sözü; 16-cı maddəsinin birinci hissəsindən «Azərbaycan Respublikası nəqliyyat prokurorunun» sözləri; ikinci hissəsindən «Azərbaycan Respublikasının nəqliyyat prokuroru» sözləri; 29-cu maddəsinin yeddinci hissəsindən «Azərbaycan Respublikasının Nəqliyyat prokuroru» sözləri çıxarılsın.

2. Qanundan 13-cü maddə çıxarılsın.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 5 iyul 2000-ci il**

**№ 902-IQD**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 31 iyul, № 7.- S. 2865-2866.**